# AMEA Mərkəzi Elmi Kitabxanasının 2004-cü ilin yekunları üzrə hesabatı

2004-cü ildə Kitabxana plana əsasən 5 problemə daxil olan 11 mövzu üzrə 21 tədqiqat işi aparmışdır.

2004-cü ildə "Uçot-qeyd biblioqrafik göstəricilərinin tərtibi" probleminə daxil olan "Azərbaycan Milli Elmlər Akademiyasının nəşrlərinin biblioqrafiyası.. mövzusu üzrə 6 iş aparılmışdır:

-"AMEA-nın nəşrlərinin biblioqrafiyası. 1984-cü ildə çap oluşmuş nəşrlərin" biblioqrafik göstəricisi çapdan çıxmışdır.

-"AMEA-nın nəşrlərinin biblioqrafiyası." 1985-1990-cı illərdə çap olunmuş nəşrlər- biblioqrafik göstəricilər üçün material toplanmışdır.

Hesabat ilində "Mövzu biblioqrafik göstəricilərin tərtibi" probleminə daxil olan 2 mövzu işlənmişdir.

1. "Azərbaycan folkloru" mövzusu üzrə materal toplanmış və qruplaşdırılmışdır.
2. "Y.E.Bertelsin şəxsi kitabxanasının biblioqrafik göstəricisi" (çap kataloqu) çapa hazırlanmışdır.

"Görkəmli elm və mədəniyyət xadimlərinin biblioqrafiyası" seriyasından 13 biblioqrafik göstərici hazırlanmışdır.

-akademik Məmmədtağı Cəfərovun,
-AMEA həqiqi üzvü, elmlər doktoru Qurban Cəlilovun,
-müxbir üzv Bəhram Əskərovun,
-muxbir üzv Sudeyif İmamverdiyevin,
əsərlərinin biblioqrafik gösətriciləri hazırlanmış və nəşr edilmişdir.
-Akademik Cəlal Əliyevin,
-akademik Xudu Məmmədovun,
-akademik Vahid Hacıyevin,
-müxbir üzv Şaxbaz Muradovun - əsərlərinin biblioqrafik göstəriciləri tərtib edilib, çapa hazırlanmışdır.
-Akademik Heydər Hüseynovun,
-akademik Ömər Eldarovun,
- müxbir üzv Arif Məlikovun,
- müxbir üzv Vasim Məmmədəliyevin- əsərlərinin biblioqrafik göstəriciləri üçün material toplanmışdır.

Hesabat ilində cari biblioqrafik göstəricilərin tərtibi problemi üzrə "AMEA Mərkəzi Elmi Kitabxanasına yeni daxil olan ədəbiyyatın kataloqlarının hazırlanması" mövzusunda 2 iş aparılmışdır.

1. "Mərkəzi elmi kitabxanaya 2004-cü ildə Azərbaycan, rus, Qərbi Avropa və Şərq dillərində yeni daxil olan kitablar". Kataloq. 1,2-3 buraxılışlar çap edilmişdir.
2. "Mərkəzi Elmi Kitabxanaya 2004-cü ildə Qərbi Avropa və şərq dillərində daxil olan dövri mətbuat. Kataloq" hazırlanıb, çap edilmişdir.

2004-cü ildə "Kitabxana işi sahəsində aktual nəzəri və təcrübi məsələlərə aid elmi tədqiqatların təşkili" üzrə 2 mövzu işlənmişdir.

1. "MEK-nın "Elmi əsərləri" hazırlanmış və nəşr edilmişdir.
2. "AMEA-nın Mərkəzi Elmi Kitabxanasının bələdçisi" çapa hazırlanmışdır.

Cari ildə "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması" istiqamətində "Elektron informasiya bazalarının yaradılması" probleminə daxil olan 4 mövzu işlənmişdir.

1."Mərkəzi Elmi Kitabxananın Veb-səhifəsi yaradılmışdır.
2."Yeni nəşrlərin elektron kitabxanasının yaradılması" məqsədilə nəşriyyatlardan SD-disklərin toplanmışdır və bu sahədə iş davam etdirilir.
3. "Azərbaycanda neft. Elektron biblioqrafik göstəricinin yaradılması" mövzusu üzrə iş aparılır. Bu işlə bağlı məlumat bazaları hazırlanır.

4."Azərbaycan Milli Elmlər Akademiyasının alimləri" elektron biblioqrafik göstəricisinin yaradılması" mövzusu üzrə iş aparılır. Bu mövzu ilə əlaqədər "Humanitar və ictimai elmlər üzrə AMEA-nın alimləri" bölməsində artıq - humanitar elmlər üzrə material toplanmış və baza yaradılmışdır.

2004-cü ildə MEK-da plandan əlavə görülən işlər

"Görkəmli elm və mədəniyyət xadimlərinin biblioqrafiyası" mövzusunda 3 iş başa çatdırılıb çap edilmişdir:
-akademik Maqsud İsfəndiyar oğlu Əliyevin,
-akademik İsa Əkbər oğlu Həbibbəylinin
elmlər doktoru, professor Aida Nəsir qızı İmanquliyevanın əsərlərinin biblioqrafik göstəriciləri nəşr edilmişdir.

1. "Aida Nəsir qızı İmanquliyevanın əsərlərinin biblioqrafik göstəricisi" Tərtibçilər: A.Kəngərli, İ.Səfərov. Redaktor: A.Əsədova.
2. "Akademik Maqsud İsfəndiyar oğlu Əliyevin əsərlərinin biblioqrafik göstəricisi" Tərtibçilər: İ.M.Əliyev, A.İ.Kəngərli, H.B.İbrahimov; Redaktor: İ.H.Səfərov.
3. "Akademik İsa Əkbər oğlu Həbibbəylinin əsərlərinin biblioqrafik göstəricisi" adlı iş nəşr edilmişdir.
4. "Akademik Teymur Əmiraslan oğlu Bünyadovun əsərlərinin biblioqrafik göstəricisi" elmi redaktə mərhələsindədir.
5. "Akademik Asəf Abbasqulu oğlu Nadirovun əsərlərinin biblioqrafik göstəricisi" üçün material toplanır.
6. "Müxbir üzv Məşədixanım Nemətovanın əsərlərinin biblioqrafik göstəricisi" hazırlanmışdır.

Cari ildə "Mövzu biblioqrafik göstəricilərin tərtibi" problemi üzrə bir mövzu işlənmişdir. "Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafik göstəricisi (1976-2004)" üçün material toplanmışdır.
Hesabat ilində "Kitabxana işi sahəsində aktual nəzəri və təcrübi məsələlərə aid elmi tədqiqatların təşkili" istiqamətinə daxil olan 3 mövzu işlənmişdir.
"Azərbaycan Milli Elmlər Akademiyası Kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu"nun 1-ci və 2-ci buraxılışları çap edilmişdir.
"AMEA MEK-ın və kitabxana şəbəkəsinin əsas iş proseslərinin normaları; Əməyin elmi təşkili" adlı iş -MEK-da kitabxana-informasiya proseslərinin müasir tələblərinə uyğun olaraq işlənilir.

Cari ildə "Elektron ehtiyatların yaradılması" probleminə daxil olan 1 mövzu üzrə iş aparılır.

"Veblioqrafiya (Dünya kitabxanalarının saytları)". 10 cild. 1 cild çap edilmişdir. İdeya müəllifi A.İ.Əliyeva-Kəngərli, tərtibçi C.Cəfərov.
Kitaba dünya kitabxanalarının, kitabxana cəmiyyətlərinin, qurum və təşkilatların sayt ünvanları daxil edilmişdir. Veblioqrafiya ölkəmizdə ilk dəfə nəşr olunur. İnternet şəbəkəsinin sürətlə inkişaf etdiyi və genişləndiyi bir dövrdə veblioqrafiya tipli nəşrlərə olduqca böyük ehtiyac vardır.

2. Nəşriyyat fəaliyyəti.
Hesabat ilində Mərkəzi Elmi Kitabxana 94,3 ç.v. həcmində 14 kitab nəşr etmişdir, respublika mətbuatında kitabxananın əməkdaşlarının 40-dan çox məqalələri çap olunmuşdur.
Kitablar:
1."Mərkəzi Elmi Kitabxananın Elmi əsərlər. (məqalələr toplusu) Kitabxanaşünaslıq, kitabşünaslıq, ədəbiyyatşünaslıq". 5-ci buraxılış; B.: MEK, 2004. - 138s. - 8,6 ç.v.
2.Veblioqrafiya Dünya (kitabxanalarının saytları). 1 cild. 1 buraxılış. - B.: MEK, 2004. - 134 s. - 8,3 ç.v.
3.Azərbaycan Milli Elmlər Akademiyası kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu. 1 bur. - B.: MEK, 2004. -68 s. - 4,2 ç.v.
4.Azərbaycan Milli Elmlər Akademiyası kitabxana sisteminin fəaliyyətini tənzimləyən sənədlər toplusu. 2 bur. - B.: MEK, 2004. - 150 s. - 9,3 ç.v.
5. Maqsud İsfəndiyar oğlu Əliyev: Bibiloqrafik göstərici. - B.: MEK, 2004. -144 s. - 9,7 ç.v.
6. Aida Nəsir qızı İmanquliyeva: Biblioqrafik göstərici. - B.: MEK, 2004. -117 s. - 7,5 ç.v.
7. Sudeyif Bəşir oğlu İmamverdiyev: Biblioqrafik göstərici. - B.: MEK, 2004. - 127 s. - 5,5 ç.v.
8. Bəhrəm Mehrəli oğlu Cəlilov: Biblioqrafik göstəricisi. - B.: MEK, 2004. - 110 s. - 3,4 ç.v.

9. Qurban Nizaməddin oğlu Cəlilov: Biblioqrafik göstərici. - B.: MEK, 2004. - 110 s. 3,4 ç.v.
10. İsa Əkbər oğlu Həbibbəyli: Biblioqrafik göstərici. - B.: MEK, 2004. -119 s. 7,5 ç.v.
11. Məmmədtağı İbrahim oğlu Cəfərov: Biblioqrafik göstərici. - B.: MEK, 2004. -93 s. - 6 ç.v.
12. Mərkəzi Elmi Kitabxanaya 2004-cü ildə yeni daxil olan kitablar. Bibiloqrafik informasiya bülleteni.Kataloq. 1 bur. - B.: MEK, 2004. - 66 s. - 4 ç.v.
13. Mərkəzi Elmi Kitabxanaya 2004-cü ildə yeni daxil olan kitablar. Bibiloqrafik informasiya bülleteni.Kataloq. 2-3 bur. - B.: MEK, 2004. -76 s. 4,5 ç.v.

3. Kadr hazırlığı

Hal-hazırda Mərkəzi Elmi Kitabxanada 11 şöbə fəaliyyət göstərir. Həmin şöbələrdə 126 mütəxəssis çalşıır, onlardan 3 nəfəri elmlər doktoru, 14 nəfəri isə elmlər namizədidir, 36 əməkdaş elmi-tədqiqat işi üzərində çalışır. Cari ildə kitabxananın əməkdaşları Qəhrəmanova Əntiqə "Əhliman Axundovun elmi biblioqrafik tərcümeyi-halı" adlı, İslamova Şəfəq isə "Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990-cı illər)" adlı namizədlik dissertasiyaları müdafiə etmişlər.

2004-cü ildə Kitabxananın kadr tərkibinin təkmilləşdirilməsi məqsədilə əməkdaşların attestasiyası keçirilmişdir.

Bununla yanaşı MEK kadr hazırlığına xüsusi diqqət yönəltmişdir. Kitabxananın əməkdaşları Amerika səfirliyi nəznindəki Tədris Mərkəzinin təşkil etdiyi "İnternetdə axtarış", "Məlumat bazaların yaradılması", Veb-dizayn və s. kursları keçmiş, yeni biliklərə yiyələnmiş, sertifikatlar almışlar.

Kitabxananın əməkdaşları Misir Ərəb Respublikasının Bakıdakı Səfirliyinin Mədəniyyət Bürosu xətti ilə təşkil olunmuş ərəb dili və Mədəniyyət Nazirliyi nəznindəki Mədəniyyət işçilərinin ixtisasartırma mərkəzində kurslar keçmişdilər.

4. Elmi-təşkilati fəaliyyət

MEK-nın Elmi Şurasının 12 iclası keçirilmişdir. İclaslarda bir sıra elmi, elmi-təşkilati və kadr məsələləri müzakirə edilmiş, AMEA Rəyasət Heyətinin qərar və sərəncamları, MEK-ın Elmi və elmi-təşkilati fəaliyyətinin yekunları müzakirə edilmişdir. Bundan başqa aparılmış tədqiqatların nəticələri müzakirə olunaraq təsdiq edilmişdir və konkret qərərlar qəbul edilmişdir. Elmi konfrans və seminarlarda iştirak edənlərin hesabatları müzakirə və təsdiq edilmişdir.

6-dan artıq layihə hazırlamış, bunlardan 3-ü donor təşkilatlarına təqdim edilmişdir.

2004-cü ildə MEK Akademiyanın 27 Elmi Tədqiqat İnstitutu kitabxanalarına metodiki rəhbərlik etmişdir.

5. Elmi konfranslar, seminarlar.

Elmin informasiya təminatı: ənənə və yeni texnoloqiyalar.

2004-cü ilin sentyabr ayının 5-də AMEA Mərkəzi Elmi Kitabxanasında "Elmin informasiya təminatı: ənənə və yeni texnoloqiyalar" mövzusunda elmi konfrans keçirilmişdir.

Noyabr ayının 10-da "Elektron Kitabxanaların yaradılması" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Dekabr ayının 10-da "H.Əliyev və Azərbaycan kitabı" adlı elmi sessiya keçirilmişdir.

Noyabr ayının 4-dən 12-dək "Kitabxana proseslərinin avtomatlaşdırılması" şöbəsinin müdiri C.Cəfərov Litva Kitabxana Konsorsiumunun və Litva Elmlər Akademiyasının Elmi Kitabxanasının "Avtomatlaşdırma" və "İnformasiya sistemləri" mövzusunda keçirilən seminarında iştirak edib.

2004-cü ilin noyabr ayının 15-dən 19-dək Moskva vilayətinin Zveniqorod şəhərində keçirilən "Kitabxanalar üçün informasiya texnologiyaları, kompüter sistemləri və çap məhsulları. LİBKOM 2004" Səkkizinci Beynəlxalq Konfrans və sərgisində MEK-nın iki əməkdaşı iştirak etmişdir.

6. PROBLEMLƏR, NÖQSANLAR

1. Mərkəzi Elmi Kitabxananın hal-hazırda ən vacib problemlərindən biri xalqın milli- mədəni sərvəti olan kitab fondlarınn mühafizəsi məsələsidir: ədəbiyyatın yerləşdirilməsi üçün sahələrin çatışmaması, fondların fiziki mühafizəsinin təmin olunmaması, kitabsaxlayıcıların standartlara uyğun gəlməməsi və b. Kitabxananı dünya standartlarına uyğun ixtisaslaşdırılmış oxu zalı olan, müasir texniki avdanlıqlarla təhciz edilmiş, nadir və unikal nəşrlərini mühafizəsini təmin edən xüsusi şəraitə malik yeni bina ilə təmin edilməsi vacib vəzifə kimi meydana çıxmışdır və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir.

3. Oxucu tələbatını ödəmək, beynəlxalq mübadiləni genişlənrdirmək, Azərbaycan elminin nailiyyətlərini dünya miqyasında təbliğ etmək üçün AMEA ETİ-nin nəşrləri və ümumiyyətlə "Elm" Redaksiya Nəşriyyat Poliqrafiya Mərkəzinin çap məhsullarının Kitabxanaya müntəzəm olaraq daxil olmaması.
4. Xarici elmi jurnalların əldə edilməsi üçün valyutanın ayrılmaması.
5. AMEA MEK-da yüksək ixtisaslı elmi kadrların hazırlanması məqsədi ilə Kitabxana üçün aspirantura yerinin ayrılmaması.

7. Mühüm nəticələr

Mərkəzi Elmi Kitabxana 2004-cü ildə bir neçə mühüm nəticə əldə etmişdir.

- Oxucuları məlumatlandırmaq üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gündəlik siyasi və ictimai-iqtisadi fəaliyyətini əks etdirən xüsusi informasiya bazası yaradılmışdır. Bazada material xronoloji qaydada dörd hissədə ("Rəsmi xronika", "Çıxışlar", "Sənədlər", "Hadisələr") verilmişdir.
- MEK-nın cari ildə əldə etdiyi ən mühüm nəticəsi "İRBİS-64" avtomatlaşdırılmış kitabxana-informasiya sistemi adlı proqram təminatının əldə edilməsi olmuşdur. "İRBİS-64" dünya standartlarına və müasir kitabxana sistemlərinin qarşısında qoyulan tələblərə cavab verən kitabxana proseslərinin tam avtomatlaşdırılması üçün geniş imkanlara malik olan proqramdır.

Kitabxana EBSKO Beynəlxalq Konsorsiumun üzvü olan Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna daxil olmuşdur və dünyada çox məhşur olan EBSKO verilənlər bazalarından 7000 adda xarici tammətnli elmi jurnallardan İnternet vasitəsilə istifadə etmək və həmin jurnalların SD-lərini almaq imkanını əldə etmişdir.

- "Kitabxana axtarış portalı" hazırlanmışdır. Portal özündə azərbaycanda kitabxana işi ilə bağlı bütün informasiyanı əks etdirir.
- MEK-da "Azərbaycan elmi", "Azərbaycan ədəbiyyatı", "Azərbaycanda neft", "Dissertasiyalar", "Avtoreferatlar" elektron məlumat bazaları yaradılmışdır və s. (ümumilikdə 800-dən çox elektron nəşr vahidi vardır).
- Mərkəzi Elmi Kitabxananın "qızıl fondu" növbəti nadir nüsxə ilə zənginləşdirilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akad. M.Kərimovun İran İslam Respublikasının birinci şəxsinin ona hədiyyə etdiyi "Şah İsmayıl külliyyatı" adlı kitabını Kitabxanaya təqdim etməsi böyük Xətai irsi tədqiqatçılarına əvəzsiz bəxşiş oldu.

MEK-da oxucu qeydiyyatı avtomatlaşdırılmışdır. Müasir standartlara uyğun yeni oxucu biletləri hazırlanmışdır,

Mərkəzi Elmi Kitabxananın 2004-cü ildə ayrı-ayrı istiqamətləri üzrə fəaliyyətinin nəticələri

Kitabxana xidməti

Hesabat ilində MEK-da
oxucuların ümumi sayı - 45 464 nəfər,
davamiyyət- 1 754 494,
kitab verili-şi- 2. 381.925 nüsxə ədəbiyyat,
fondlarının ümumi həcmi- 3. 459. 082 nüsxə olmuşdur.

MEK-nın fondlarının komplektləşdirilməsi

MEK-ın elmi fondlarının komplektləşdirilməsi əsasən "Qasid" firması, nəşriyyatlardan "məcburi nüsxə"lərin alınması, beynəlxalq kitab mübadiləsi, ayrı-ayrı alimlərdən, mütəxəssislərdən, təşkilatlardan kitab hədiyyələri yolu ilə həyata keçirilmişdir.

Hesabat ilində MEK-ya 16 559 nüsxə ədəbiyyat, o cümlədən 3 655 nüsxə xarici dillərdə ədəbiyyat daxil olmuşdur. Bunlardan 7 197 nüsxəsi kitabdır: 4. 536 nüsxə Azərbaycan dilində, 1. 928 rus dilində, 733 nüsxə Qərbi Avropa və Şərq dillərindədir. MEK-ya daxil olan dövri mətbuatın ümumi sayı 6 856 nüsxə olmuşdur ki, onların 2 273 nüsxəsi xarici dillərdədir.

Hesabat ili ərzində MEK-ya 1764 nüsxə aftoreferat və 37 nüsxə dissertasiya qəbul edilmişdir.

Beynəlxalq əməkdaşlıq

AMEA MEK ali təhsil müəssisələri, nəşriyyatlar, redaksiyalar, ayrı-ayrı elm və mədəniyyət xadimləri ilə əlaqə yaradaraq, ədəbiyyat və infoomasiya mübadiləsi aparmışdır.

Hazırda MEK dünyanın 63-ə yaxın dövlətinin 610 təşkilati, tədqiqat müəssisələri, kitabxanalar, ali təhsil müəssisələri, görkəmli alim və mədəniyyət xadimləri ilə mübadilə və informasiya əlaqələri aparır.

Hesabat ilində BKM vasitəsilə 3 370 nüsxə ədəbiyyat alınmışdır.

Kitabxanamız cari ildə Şərq ölkələrinə 168, qərbi Avropa ölkələrinə 1 216, MDB ölkələrinə 521 nüsxə

ədəbiyyat göndərmişdir.

Oxuculara biblioqrafik xidmət.

Hesabat ilində kitabxananın kataloq və kartatekalar sisteminin təkmilləşdirlməsi, onların yeni ədəbiyyatla zənginləşdirilməsi, elmi redaktəsi, üzrə iş aparılmışdır. Kataloqlara ümumiyyətlə 15 487 kartoçka düzülmüşdür. 2004-cü ildə Azərbaycan, rus, Qərbi Avropa və Şərq dillərində olan əlifba kataloqlarından 28.750 kartoçka, sistemli kataloqlarından 61 325 kartoçka elmi redaktə edilmişdir.

"Gələcək naminə" təşkilatı ilə MEK-ın birgə layihəsində Kitabxananın azərbaycan dilində ədəbiyyatın elektron kataloqu yaradılmışdır və məlumat bazalarına 797 adda ədəbiyyat daxil edilmişdir.

"Azərbaycanda elm və mədəniyyət" və "Azərbaycan xaricdə" kartotekaların elmi redaktəsi və təkmilləşdirilməsi işi davam etdirilmişdir. Kartotekalarda 62 adda yeni rubrika açılmışdır, 11 847 kartoçka əlavə edilmişdir.

"Qafkaz regionu və qonşu ölkələr" adlı kartotekası üçün nadir kitabların analitik elmi təsviri aparılmışdır və 852 kartoçka burada əks etdirilmişdir.

Oxucuların sorğularına müvafiq olaraq "H. Əliyev və Türk dünyası", "Azərbaycanda soyqırım və deportasiya", "Qarabağ və terrorizm" və s. mövzularda yazılı biblioqrfik arayışlar hazırlanmışdır.

Cari ildə kitabxananın fondları və məlumat-biblioqrafiya aparatı bazasında oxucuların 33 855 şifahi biblioqrafik arayışı yerinə yetirilmişdir.

Sərgilər və kütləvi tədbirlər

Cari ildə Kitabxanada müxtəlif elmi mövzularda, əlamətdar və tarixi günlərə, ayrı-ayrı alim və yazıçı, dövlət xadimlərinin yubileylərinə həsr olunmuş, konfrans və seminarlarla bağlı sərgi və yeni kitab sərgiləri keçirilmişdir.

2004-cü ildə MEK-da və onun Şəbəkə kitabxanalarında "Müasir iqtisadiyyat" "Təbiət fəlakətin astanasında", "Xəzərin keçmişi və gələcəyi", "21-ci əsrin siyasəti", "Dağlıq Qarabağ münaqişəsi", "Ziya Bünyadov-80", "Mir Əsədulla Mirqasımov-120" və s. cəmi 147 sərgi təşkil edilmişdir. Təşkil olunmuş sərgilərdə 4 049 nüsxə ədəbiyyat nümayiş etdirilmişdir

Görkəmli şərqşünas alim Aida İmanquliyevanın anadan olmasının 65 illiyinə həsr olunmuş "Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr" mövzusunda keçirilən Beynəlxalq elmi konfransda MEK kitab sərgisi təşkil etmiişdir və 410 nüsxə ədəbiyyat burada nümayiş etdirilmişdir.

Cari ildə AMEA Mərkəzi Elmi Kitabxanası, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Elmi Tədqiqat Elmi-Texniki İnformasiya və Texniki-iqtisadi Tədqiqatlar İnstitutu Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) elmi-texniki informasiya təminatı çərçivəsində elmi-texniki ədəbiyat sərgisi keçirmişdir.

Hesabat ilində MEK bir sıra elmi-kütləvi tədbirlər təşkil etmişdir.

Azərbaycan xalqının ümumilli lideri Heydər Əlirza oğlu Əliyevin vəfatının birilliyinə həsr olunmuş "H.Əliyev və Azərbaycan kitabı" adlı elmi sessiya keçirilmişdir.

Filologiya elmləri doktoru Qaley Allahverdiyevin "21-ci əsr Azərbaycan ədəbiyyatşünaslığı məsələləri" kitabının təqdimatı, və xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Əkrəm Əylislinin "Əylisdən Əylisəcən" kitabının müzakirəsi və b. tədbirlər keçirilmişdir.